**"TƏSDİQ EDİRƏM"**

**"Azərbaycan Turizm Bürosu" publik hüquqi şəxsin Mehmanxanaların ulduz kateqoriyaları üzrə sertifikatlaşdırma orqanın rəhbəri ____________ Florian Sengstschmid**

**24.07. ____________ 2026-ci il**

"Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi" "AZƏRBAYCAN TURİZM BÜROSU" Publik Hüquqi Şəxsi "AZERBAIJAN TOURISM BOARD" Public Legal Entity State Tourism Agency of the Republic of Azerbaijan

**"Azərbaycan Turizm Bürosu" publik hüquqi şəxsin Mehmanxanaların ulduz kateqoriyaları üzrə sertifikatlaşdırma orqanı**

# SERTİFİKATLAŞDIRMA MÜQAVİLƏSİ

**Mehmanxanaların (hotellərin) ulduz kateqoriyalarının müəyyən edilməsinə dair**

**Müqavilə №________________**

Bakı şəhəri "___"___________2026 il

Bu Müqavilə bir tərəfdən "Azərbaycan Turizm Bürosu" publik hüquqi şəxsin Yerləşmə vasitələrinin sertifikatlaşdırılması orqanının (bundan sonra – Uyğunluğu qiymətləndirən qurum) İdarə Heyətinin sədri Florian Zenqstşmid, digər tərəfdən Həzrət Əlmirzəyev Qilbəli oğlu şəxsində təmsil olunan və Bakı şəhəri, Nizami küçəsi 90A ünvanında yerləşən "The Landmark Hotel Baku" mehmanxanasının fəaliyyətini həyata keçirən "ALTERUM" MMC (bundan sonra – Sifarişçi) arasında aşağıdakı şərtlərlə bağlanır.

Bu Müqavilə üzrə Uyğunluğu qiymətləndirən qurum və Şifarişçi ayrı-ayrılıqda "Tərəf", birlikdə isə "Tərəflər" adlandırılır.

NƏZƏRƏ ALARAQ Kİ:

- "Turizm haqqında" Azərbaycan Respublikası Qanunun 9.1-ci maddəsinə əsasən Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən hər bir mehmanxana (hotel) fəaliyyətə başladığı tarixdən 6 (altı) ay ərzində ulduz kateqoriyası əldə etməlidir və mehmanxanaların (hotellərin) ulduz kateqoriyalarının müəyyən edilməsi "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin müəyyən etdiyi mehmanxanaların (hotellərin) ulduz kateqoriyaları üzrə qiymətləndirmə meyarları əsasında həyata keçirilir.
- Uyğunluğu qiymətləndirən qurum 2023-cü il 1 avqust tarixli AZ 02.0049.01.23 nömrəli akkreditasiya attestatına malikdir;
- mehmanxanaların (hotellərin) ulduz kateqoriyaları üzrə qiymətləndirilməsi Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin 2026-cı il 25 may tarixli 3-46/3-2-3KQ/26 nömrəli qərarı ilə təsdiq edilmiş "Mehmanxanaların (hotellərin) ulduz kateqoriyaları üzrə qiymətləndirmə meyarları" (bundan sonra "Meyarlar") əsasında həyata keçirilir, sertifikatlaşdırılması Uyğunluğu qiymətləndirən qurumun sertifikatlaşdırma sxemi və həmin sxemdən irəli gələn sənədlər əsasında həyata keçirilir.

TƏRƏFLƏR AŞAĞIDAKILAR BARƏDƏ RAZILIĞA GƏLİRLƏR:

## 1. Anlayışlar

1.1. Bu Müqavilədə istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1. **sertifikatlaşdırma sxemi (Sxem)** – mehmanxanaların (hotellərin) ulduz kateqoriyaları üzrə sertifikatlaşdırma prosesinin mərhələlərini, tələblərini, qiymətləndirmə, təhlil, qərarvermə, sertifikatlaşdırma, inspeksiya və digər qaydalarını müəyyən edən və Uyğunluğu qiymətləndirən qurum tərəfindən tətbiq olunan sənəddir.

1.1.2. **ulduz kateqoriyası (dərəcəsi)** – mehmanxananın (hotelin) Meyarlar üzrə 1–5 ulduz dərəcələrinə görə aid edildiyi iyerarxik səviyyəsidir;

1.1.3. **uyğunluq sertifikatı (sertifikat)** – mehmanxanaya (hotelə) ulduz kateqoriyasının müəyyən edildiyini təsdiq edən, Uyğunluğu qiymətləndirən qurum tərəfindən verilən rəsmi sənəddir;

1.1.4. **uyğunluq nişanı (nişan)** – sertifikatlaşdırma nəticəsində mehmanxanaya (hotelə) verilən, həmin mehmanxananın (hotelin) giriş hissəsində, onun fəaliyyəti ilə bağlı sənədlərdə və ya satış həyata keçirdiyi platformalarda yerləşdirilən, həmin uyğunluğun vizual şəkildə ifadə olunmasını təmin edən və Uyğunluğu qiymətləndirən qurum tərəfindən Sifarişçiyə təqdim olunan rəsmi tanınma lövhəsi;

1.1.5. **qiymətləndirmə** – mehmanxananın (hotelin) Meyarlara uyğunluğunun obyektiv qaydada araşdırılması və nəticədə mehmanxanaya (hotelə) ulduz kateqoriyasının müəyyən edilməsi prosesidir.

1.1.6. **inspeksiya** – ulduz kateqoriyası müəyyən edilmiş mehmanxananın (hotelin) Meyarlara uyğunluğunun yoxlanılması məqsədilə aparılan nəzarət prosedurudur.

1.2. Mehmanxanalara (hotellərə) verilən nişanda aşağıdakılar əks olunur:

1.2.1. yuxarı hissənin sol küncündə Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin adı, sağ küncündə Uyğunluğu qiymətləndirən qurumun adı, onlardan aşağıda "Milli ulduz təsnifatı" sözləri və onun ingilis dilində tərcüməsi;

1.2.2. orta hissəsində ulduz kateqoriyasını ifadə edən aşağıdakı qrafik təsvirlərdən biri və ondan aşağıda mehmanxananın (hotelin) adı:

1.2.2.1. ★ (1 ulduz)

1.2.2.2. ★★ (2 ulduz)

1.2.2.3. ★★★ (3 ulduz)

1.2.2.4. ★★★★ (4 ulduz)

1.2.2.5. ★★★★★ (5 ulduz)

1.2.3. aşağı hissəsində nişanın qüvvədə olma müddəti, "Hotel Stars Union"-un və Azərbaycan Hotel Asossasiyasının loqoları.

## 2. Müqavilənin predmeti

Uyğunluğu qiymətləndirən qurum Meyarlar əsasında bu Müqavilənin preambulasında göstərilən mehmanxananın (hotelin) qiymətləndirilməsini və qiymətləndirmənin nəticəsinə uyğun olaraq mehmanxanaya (hotelə) ulduz kateqoriyasının müəyyən edilməsi və bununla

əlaqədar mehmanxananın (hotelin) sertifikat və nişan ilə təmin edilməsini (bundan sonra – xidmətin göstərilməsi), Sifarişçi isə Uyğunluğu qiymətləndirən qurum tərəfindən göstərilən xidmətin dəyərini bu Müqavilənin ayrılmaz tərkib hissəsi sayılan 1 nömrəli əlavədə müəyyən edilmiş xidmətlərin qiymət cədvəlinə uyğun olaraq ödənilməsini öhdəsinə götürür.

## 3. Tərəflərin hüquq və öhdəlikləri

3.1. **Uyğunluğu qiymətləndirən qurumun vəzifələri:**

3.1.1. bu Müqavilənin 2-ci hissəsi ilə müəyyən olunmuş qiymətləndirməni Meyarlara əsasən həyata keçirmək;

3.1.2. qiymətləndirməni qərəzsiz, obyektiv və peşəkar prinsiplərə əsasən aparmaq;

3.1.3. qiymətləndirmə prosesində əldə olunmuş kommersiya və xidmət sirrini qorumaq və üçüncü şəxslərə açıqlamamaq;

3.1.4. qiymətləndirmə zamanı yalnız ixtisaslı ekspertləri cəlb etmək;

3.1.5. qiymətləndirmə nəticələrinə dair qiymətləndirmə hesabatını təqdim etmək;

3.1.6. Meyarlara uyğunluq müəyyən edildikdə bu Müqavilənin 2-ci hissəsi ilə müəyyən olunmuş sertifikatın və nişanın verilməsini təmin etmək;

3.1.7. sertifikatın və nişanın istifadəsinə nəzarət etmək və pozuntu aşkar edildikdə müvafiq tədbirlər görmək;

3.1.8. bu Müqavilədən irəli gələn digər vəzifələri yerinə yetirmək.

3.2. **Uyğunluğu qiymətləndirən qurumun hüquqları:**

3.2.1. qiymətləndirmə üçün zəruri sənəd və məlumatları Sifarişçidən tələb etmək;

3.2.2. mehmanxanaya (hotelə) baxış keçirmək, foto-video qeydlər aparmaq və ölçmə vasitələrindən istifadə etmək;

3.2.3. bu Müqavilədə müəyyən olunmuş hallarda Müqaviləni birtərəfli qaydada ləğv etmək;

3.2.4. təqdim edilmiş məlumatların düzgünlüyünü yoxlamaq və ehtiyac yarandıqda əlavə məlumatları və sənədləri tələb etmək;

3.2.5. Sifarişçi tərəfindən Müqavilənin şərtləri pozulduqda bu barədə əsaslandırılmış yazılı pretenziyanı Sifarişçiyə təqdim etmək;

3.2.6. bu Müqavilədə müəyyən olunmuş hallarda sertifikatı ləğv etmək;

3.2.7. bu Müqavilənin 3.2.5-ci yarımbəndinə əsasən pretenziya təqdim edildikdən sonra 1 (bir) ay ərzində Şifarişçi tərəfindən pozuntular aradan qaldırılmadıqda, həmçinin sertifikatın və (və ya) nişanın istifadə qaydalarının pozulması aşkar edilərsə Sifarişçiyə bu barədə məlumat verməklə Müqaviləni birtərəfli qaydada ləğv etmək;

3.2.8. bu Müqavilə ilə nəzərdə tutulmuş xidmət haqqını tələb etmək;

3.2.9. Qiymətləndirmə və ya inspeksiya zamanı ehtiyac yarandıqda, Uyğunluğu qiymətləndirən qurumun nümayəndələrinin qiymətləndirmə apardığı mehmanxanada (hoteldə) ödənişsiz yerləşdirilməsini (gecələməsini) tələb etmək;

3.2.10. bu Müqavilədən irəli gələn digər hüquqları həyata keçirmək.

3.3. **Sifarişçinin vəzifələri:**

3.3.1. qiymətləndirmənin aparılması üçün tələb olunan sənəd və məlumatları düzgün, tam və vaxtında təqdim etmək;

3.3.2. Uyğunluğu qiymətləndirən qurumun nümayəndələrinin qiymətləndirmə, inspeksiya zamanı, sertifikatının qüvvəsinə təsir edə biləcək dəyişikliklər baş verdikdə, eyni zamanda sertifikatın və (və ya) nişanın istifadə qaydalarının pozulması aşkar edildikdə mehmanxanaya (hotelə) baxış keçirilməsi üçün həmin əraziyə maneəsiz girişini təmin etmək;

3.3.3. Qiymətləndirmə və ya inspeksiya zamanı ehtiyac yarandıqda, Uyğunluğu qiymətləndirən qurumun nümayəndələrinin qiymətləndirmə apardığı mehmanxanada (hoteldə) ödənişsiz yerləşdirilməsini (gecələməsini) təmin etmək;

3.3.4. qiymətləndirmə zamanı təhlükəsizlik qaydalarına riayət olunması üçün zəruri şəraiti yaratmaq;

3.3.5. qiymətləndirmə və inspeksiya prosesinə müdaxilə etməmək və Uyğunluğu qiymətləndirən qurumun nümayəndələrinin qərəzsiz fəaliyyətinə təsir göstərə biləcək hərəkətlərə yol verməmək;

3.3.6. bu Müqavilənin 4.6-cı bəndi ilə müəyyən olunmuş nöqsanların (uyğunsuzluqların) aradan qaldırılması ilə bağlı öhdəliyin götürülməsi;

3.3.7. sertifikatın və nişanın bu Müqavilənin 6-cı hissəsi ilə müəyyən olunmuş istifadə qaydalarına riayət etmək;

3.3.8. Sifarişçi hüquqi şəxs olduqda onun hüquqi adı, mehmanxananın (hotelin) fəaliyyət göstərdiyi ünvanı, mehmanxananın (hotelin) sahibkarı dəyişdikdə, həmçinin sertifikatın qüvvəsinə təsir edə biləcək dəyişikliklər barədə dərhal Uyğunluğu qiymətləndirən quruma yazılı şəkildə məlumat vermək;

3.3.9. bu Müqavilə ilə nəzərdə tutulmuş xidmət haqqını müəyyən edilmiş qaydada və müddətdə ödəmək;

3.3.10. Uyğunluğu qiymətləndirən qurum tərəfindən qəbul edilmiş qərarların icrasını təmin etmək;

3.3.11. sertifikat ləğv edildikdə sertifikata istinad edən bütün reklam vasitələrindən istifadəni dayandırmaq və bununla bağlı Uyğunluğu qiymətləndirən qurumun göstərişlərini (tələblərini) yerinə yetirmək (məsələn, sertifikatın geri qaytarılması və s.);

3.3.12. Uyğunluğu qiymətləndirən qurumun bu Müqavilədən irəli gələn öhdəliklərinin icrasına şərait yaratmaq;

3.3.13. bu Müqavilədən irəli gələn digər vəzifələri yerinə yetirmək.

3.4. **Sifarişçinin hüquqları:**

3.4.1. qiymətləndirmə proseduru, tətbiq edilən Meyarlar və qiymətləndirmə nəticələri barədə məlumat almaq;

3.4.2. qiymətləndirmənin nəticələri ilə razılaşmadıqda 15 (on beş) gün ərzində Uyğunluğu qiymətləndirən qurumun apellyasiya komissiyasına müraciət etmək;

3.4.3. qiymətləndirmə hesabatına müvafiq olaraq uyğunluq təmin edildikdə sertifikatın və nişanın verilməsini tələb etmək;

3.4.4. Uyğunluğu qiymətləndirən qurumun müqavilə öhdəliklərini yerinə yetirməməsi hallarında ona bu barədə əsaslandırılmış yazılı pretenziyanı təqdim etmək, pretenziya təqdim edildikdən sonra 1 (bir) ay ərzində pozuntular aradan qaldırılmadıqda Uyğunluğu qiymətləndirən quruma bu barədə məlumat verməklə Müqaviləni birtərəfli qaydada ləğv etmək;

3.4.5. Müqavilədə nəzərdə tutulmuş qaydada məlumatların məxfiliyinin qorunmasını tələb etmək;

3.4.6. bu Müqavilədən irəli gələn digər hüquqları həyata keçirmək.

3.5. Bu müqavilə ilə müəyyən olunmuş hallarda sertifikatın ləğv edilməsi bu Müqavilənin ləğv edilməsi üçün əsasdır.

## 4. Xidmətin göstərilməsi prosesi

4.1. Bu Müqavilə imzalandıqdan 7.5.1-ci yarımbəndə əsasən ilkin ödəniş edildikdən sonra Şifarişçi ilə razılaşdırmaqla qiymətləndirilmənin aparılmasının tarixi müəyyən edilərək Uyğunluğu qiymətləndirən qurum tərəfindən qiymətləndirmə prosesinə başlanılır.

4.2. Qiymətləndirmə ulduz kateqoriyasının müəyyən edilərək sertifikatının və nişanının verilməsi ilə bağlı həyata keçirilir.

4.3. Qiymətləndirmə mehmanxanın (hotelin) ərazisinə daxil olmaqla, qonaqlar üçün nəzərdə tutulmuş açıq sahələrə və yaşayış nömrələrinə, xidmət və texniki sahələrə, inzibati və digər sahələrə baxış keçirilməklə, eyni zamanda qonaqların rəyləri nəzərə alınmaqla həyata keçirilir.

4.4. Aparılan qiymətləndirmə nəticəsində əldə edilmiş materiallar Qiymətləndirmə və qərarvermə komissiyasına (bundan sonra – Komissiya) təqdim edilir və Komissiya tərəfindən həmin materialların təhlili nəticəsində aşağıdakı qərarlardan biri qəbul edilərək Sifarişçiyə bununla bağlı məlumat verilir:

4.4.1. mehmanxanaya (hotelə) müvafiq ulduz kateqoriyasının müəyyən edilməsi;

4.4.2. mehmanxananın (hotelin) heç bir ulduz kateqoriyasına uyğun olmaması. Bu qərarın qəbul edilməsi Uyğunluğu qiymətləndirən qurum tərəfindən bu Müqaviləyə birtərəfli qaydada xitam verilməsi üçün əsasdır.

4.5. Sifarişçi bu Müqavilənin 7.5.2-ci yarımbəndinə müvafiq olaraq yekun ödənişi etdikdən sonra ona mehmanxananın (hotelin) ulduz kateqoriyasını əks etdirən, Uyğunluğu

qiymətləndirən qurum tərəfindən imzalanmış və möhürlə təsdiqlənmiş sertifikat, həmçinin nişan təqdim edilir.

4.6. Ulduz kateqoriyasının müəyyən edilməsindən imtina üçün əsas yaratmayan nöqsanlar (uyğunsuzluqlar) aşkar edildikdə mehmanxanaya (hotelə) müvafiq ulduz kateqoriyası müəyyən edilərək sertifikat verilir. Bu nöqsanların (uyğunsuzluqların) Uyğunluğu qiymətləndirən qurum tərəfindən müəyyən olunmuş müddət ərzində aradan qaldırılması ilə bağlı Sifarişçi tərəfindən yazılı şəkildə öhdəlik götürülür.

4.7. Götürülmüş öhdəliyin müəyyən olunmuş müddət ərzində Sifarişçi tərəfindən icra edilməməsi verilmiş sertifikatın ləğv edilməsi üçün əsasdır.

4.8. Sertifikatın qüvvədə olma müddəti 3 (üç) il təşkil edir və nişandan yalnız sertifikatın qüvvədə olduğu müddətdə istifadə oluna bilər Sertifikatın qüvvədə olma müddətinin bitməsinə ən azı 2 (iki) ay qalmış Sifarişçi tərəfindən yenidən sertifikatlaşdırma üçün Uyğunluğu qiymətləndirən quruma müraciət edildiyi təqdirdə həmin müraciət yenidən sertifikatlaşdırma kimi qiymətləndirilir. Sifarişçi tərəfindən müraciət Sertifikatın qüvvədə olma müddətinin başa çatmasına 2 (iki) aydan az müddət qaldıqda və ya Sertifikatın qüvvədə olma müddəti başa çatdıqdan sonra təqdim edildikdə, həmin müraciət ilkin sertifikatlaşdırma müraciəti kimi qiymətləndirilir. Bu hallarda tərəflər arasında yaranan münasibətlər ayrı müqavilə ilə tənzimlənəcəkdir.

4.9. Sifarişçi təkrar qiymətləndirmənin aparılması üçün Uyğunluğu qiymətləndirən quruma yazılı müraciət edə bilər. Təkrar qiymətləndirmə üçün bu Müqavilənin ayrılmaz tərkib hissəsi sayılan 1 nömrəli əlavə ilə müəyyən olunmuş ödənişin bu Müqavilənin 7.4-cü bəndinə uyğun olaraq edildikdən sonra təkrar qiymətləndirmə həyata keçirilir və qiymətləndirmənin nəticəsinə uyğun olaraq aşağıdakı qərarlardan biri qəbul edilir:

4.9.1. mehmanxanaya (hotelə) daha yuxarı ulduz kateqoriyasının müəyyən edilməsi;

4.9.2. mehmanxananın (hotelin) mövcud ulduz kateqoriyasının saxlanılması;

4.9.3. mehmanxanaya (hotelə) mövcud ulduz kateqoriyasından daha aşağı ulduz kateqoriyasının müəyyən edilməsi;

4.9.4. mehmanxananın (hotelin) heç bir ulduz kateqoriyasına uyğun olmaması.

4.10. Qiymətləndirmənin aparılması üçün Sifarişçi ilə əvvəlcədən razılaşdırılmış tarixdə qiymətləndirmənin keçirilməsinin Sifarişçi tərəfindən hər hansı üzrlü səbəb olmadan təxirə salınmasına, habelə qiymətləndirmənin həyata keçirilməsi üçün zəruri şəraitin yaradılmamasına yol verilmir.

## 5. Nəzarətin həyata keçirilməsi

5.1. Uyğunluğu qiymətləndirən qurum sertifikatın qüvvədə olduğu müddət ərzində Sifarişçi tərəfindən sertifikatın və nişanın bu Müqavilənin 6-cı hissəsi ilə müəyyən olunmuş qaydalara uyğun istifadəsinin, eyni zamanda mehmanxananın (hotelin) Meyarlara uyğun, eləcə

də xidmət səviyyəsinin sertifikatda qeyd edilən ulduz kateqoriyasına mütənasib saxlanılmasına nəzarəti həyata keçirir.

5.2. Nəzarət prosesi mehmanxana tərəfindən təqdim edilən sənədlərin (materialların) təhlili və (və ya) səyyar nəzarət formasında ildə 1 (bir) dəfə olmaqla inspeksiya vasitəsilə həyata keçirilir.

5.3. Mehmanxananın (hotelin) fəaliyyəti ilə bağlı şikayət daxil olduqda, həmçinin kütləvi informasiya vasitələrində, mediada, habelə müxtəlif istifadəçi platformalarında müvafiq məlumatlar yayıldıqda həmin şikayətin araşdırılması ilə bağlı Sifarişçiyə öncədən xəbər verilmədən inspeksiya həyata keçirilə bilər.

5.4. Ölkə səviyyəsində beynəlxalq tədbirlərin keçirilməsi zamanı da Uyğunluğu qiymətləndirən qurum tərəfindən inpeksiyanın keçirilməsi yolveriləndir.

5.5. İnspeksiyanın nəticəsində Sifarişçinin və ya onun səlahiyyətli nümayəndəsinin iştirakı ilə iki nüsxədən ibarət akt tərtib olunur. İnspeksiya nəticəsində tərtib olunmuş və əldə edilmiş materiallar təhlil edilməsi üçün Komissiyaya təqdim olunur. Təhlilin nəticəsində Komissiya tərəfindən aşağıdakı qərarlardan biri qəbul edilir:

5.5.1. mehmanxanaya (hotelə) mövcud ulduz kateqoriyasından daha aşağı ulduz kateqoriyasının müəyyən edilməsi;

5.5.2. mehmanxananın (hotelin) heç bir ulduz kateqoriyasına uyğun olmaması;

5.5.3. mehmanxanaya (hotelə) inspeksiya zamanı aşkar edilmiş uyğunsuzluqların aradan qaldırılması məqsədilə vaxtın verilməsi.

5.6. Təhlil nəticəsində heç bir nöqsan (uyğunsuzluq) aşkar edilmədikdə mövcud sertifikatın qüvvəsi saxlanılır.

5.7. Komissiya tərəfindən 5.5.2-ci yarımbənddə göstərilən qərarın qəbul edilməsi Uyğunluğu qiymətləndirən qurum tərəfindən Müqavilənin birtərəfli qaydada ləğvi üçün əsasdır.

## 6. Sertifikatın və nişanın istifadə qaydaları

6.1. Sertifikat və nişandan aşağıdakı qaydalar əsasında istifadə edilməlidir:

6.1.1. sertifikat və nişan yalnız bu Müqavilə ilə müəyyən olunmuş mehmanxana (hotel) ilə bağlı istifadə edilə bilər;

6.1.2. yalnız Uyğunluğu qiymətləndirən qurum tərəfindən təqdim edilmiş nişandan istifadə edilə bilər;

6.1.3. nişan müvafiq ulduz kateqoriyası müəyyən olunmuş mehmanxananın (hotelin) yerləşdiyi binanın əsas girişinin ön hissəsində və xaricdən baxdıqda görünən (nəzərə çarpan) formada yerləşdirilməlidir;

6.1.4. nişanda yanlış məlumatlar əks etdirilərək istehlakçıların aldadılmasına yol verilməməlidir;

6.1.5. Sifarişçi tərəfindən nişana hər hansı müdaxiləyə yol verilmir;

6.1.6. Sertifikatın məzmununun dəyişdirilməsi, təhrif edilməsi və ya hissə-hissə təqdim olunması qadağandır;

6.1.7. Sertifikat və nişan üçüncü şəxslərə ötürülə və ya istifadə hüququ başqa şəxsə verilə bilməz;

6.1.8. Sifarişçinin mehmanxananı (hoteli) rəqəmsal və (və ya) fiziki tanıtım materiallarında (o cümlədən internet səhifəsi, sosial şəbəkələr, reklam materialları və digər reklam vasitələrində) ona verilmiş ulduz kateqoriyasından fərqli və ya çaşdırıcı şəkildə təqdim etməsi qadağandır və bu hal sertifikatın ləğvi üçün əsasdır;

6.1.9. sertifikatının qüvvədə olma müddəti başa çatdıqda və ya sertifikat ləğv edildikdə nişanın istifadəsi dərhal dayandırılmalıdır.

6.2. Sertifikat sahibi nişanın düzgün istifadəsinə görə məsuliyyət daşıyır.

6.3. Uyğunluğu qiymətləndirən qurum nişanın istifadəsinə nəzarət edir və pozuntu aşkar edildikdə təxirə salmadan müvafiq tədbirlər görür.

6.4. Nişandan qanunsuz və ya yanlış istifadə edildiyi halda sertifikatın ləğvi, habelə qanunvericiliklə nəzərdə tutulmuş digər məsuliyyət tədbirləri tətbiq edilə bilər.

## 7. Müqavilənin dəyəri və ödəniş qaydası

7.1. Müqavilənin dəyəri bu Müqavilənin ayrılmaz tərkib hissəsi sayılan 1 nömrəli əlavədə müəyyən edilmiş xidmətlərin qiymət cədvəlinə əsasən müəyyən edilir və mehmanxanın (hotelin) ulduz kateqoriyasının müəyyən edilməsi məqsədilə aparılan qiymətləndirmə və bu Müqavilənin 4-cü hissəsi ilə müəyyən olunmuş müvafiq qərarların qəbul edilməsi ilə bağlı xidmətləri əhatə edir.

7.2. Müqavilə dəyərinə aşağıdakılar daxildir:

7.2.1. Meyarlar üzrə sənədlərin (materialların) təhlili;

7.2.2. qiymətləndirmənin və təkrar qiymətləndirmənin həyata keçirilməsi;

7.2.3. qiymətləndirmə hesabatının hazırlanması;

7.2.4. bu Müqavilənin 4.4.1-ci yarımbəndinə, həmçinin 4.9-cu bəndə əsasən təkrar qiymətləndirmənin nəticələrinə uyğun olaraq qərarın qəbul edilməsi və müvafiq nişanın təqdim olunması.

7.3. Müqavilə dəyəri tərəflərin yazılı razılığı olmadan dəyişdirilə bilməz.

7.4. Ödəniş Sifarişçi tərəfindən Uyğunluğu qiymətləndirən qurumun təqdim etdiyi hesab-faktura əsasında 15 (on beş) iş günü ərzində hesab-fakturada göstərilən məbləğin tam həcmində bir bank köçürməsi ilə həyata keçirilir. Hesab-fakturada göstərilən məbləğin hissə-hissə və ya natamam ödənilməsinə yol verilmir. Bu tələb bu Müqavilənin 7.5-ci bəndində nəzərdə tutulmuş hər bir ödəniş üzrə ayrıca təqdim edilən hesab-fakturaya münasibətdə tətbiq edilir.

7.5. Ödəniş aşağıdakı hissələr üzrə həyata keçirilir:

7.5.1. Müqavilə imzalandıqdan sonra 7.4-cü bəndə uyğun olaraq bu Müqaviləyə 1 nömrəli əlavə ilə müəyyən olunmuş ilkin ödənişin edilməsi;

7.5.2. bu Müqaviləyə 1 nömrəli əlavə ilə müəyyən olunmuş qaydada hesablanaraq sertifikatın qüvvədə olduğu 3 (üç) illik müddət ərzində hər il (1-ci, 2-ci və 3-cü illərin ödənişləri) üzrə bu Müqavilənin 7.4-cü bəndinə əsasən ödənişin edilməsi.

7.6. Bu Müqavilənin 4.4.2-ci yarımbəndinə uyğun qərar qəbul edildikdə 7.5.2-ci yarımbənd ilə müəyyən olunmuş hissənin ödənişi həyata keçirilmir.

7.7. Bu Müqavilənin 4.4.1-ci yarımbəndinə uyğun qərar qəbul edildikdə 7.5.2-ci yarımbənd ilə müəyyən olunmuş hissənin ödənişi həyata keçirildikdən sonra mehmanxanaya (hotelə) sertifikat və nişan verilir.

7.8. Ödəniş gecikdirildikdə, gecikdirilən hər gün üçün borc məbləğinin 0,1 %-i həcmində (həmin məbləğin 10 (on) faizindən çox olmamaq şərtilə) dəbbə pulu tətbiq oluna bilər.

7.9. Öhdəliyin icrası bu Müqavilənin 7.8-ci bəndi ilə müəyyən olunmuş dəbbə pulunun yuxarı həddinə çatacaq dərəcədə gecikdirildikdə Uyğunluğu qiymətləndirən qurum bu Müqavilənin 7.5.1-ci yarımbəndi ilə müəyyən olunmuş halda qiymətləndirmənin aparılmasından, 7.5.2-ci yarımbənddə müəyyən olunmuş halda isə sertifikatın verilməsindən imtina edə və ya təqdim edilmiş sertifikatı (2-ci və 3-cü illər üçün ödəniş edilmədikdə) ləğv edə bilər.

## 8. Müqavilənin müddəti və ləğvi

8.1. Bu Müqavilə imzalandığı tarixdən qüvvəyə minir və Müqavilənin 4.8-ci bəndi ilə müəyyən olunmuş müddətdə qüvvədə qalır.

8.2. Aşağıdakı hallarda Müqaviləyə birtərəfli qaydada ləğv edilə bilər:

8.2.1. tərəflərdən biri iflasa uğradıqda və ya mövcudluğuna və fəaliyyətinə hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən xitam verildikdə;

8.2.2. bu Müqavilənin 4.7-ci bəndinə əsasən sertifikat ləğv edildikdə;

8.2.3. bu Müqavilənin 6.1.8-ci bəndinə əsasən sertifikat ləğv edildikdə;

8.2.4. bu Müqavilənin 7.9-cu bəndinə əsasən sertifikatın verilməsindən imtina edildikdə və Sifarişçi tərəfindən sertifikatın 2-ci və ya 3-cü ili üçün müvafiq ödəniş edilmədikdə;

8.2.5. Sifarişçi verilmiş sertifikat və nişandan bu Müqavilənin təsir dairəsinə düşməyən mehmanxanalar (hotellər), habelə digər yerləşmə vasitələri üzrə istifadəyə ona edilmiş yazılı xəbərdarlıqdan sonra 15 (on beş) gün ərzində son qoymadıqda;

8.2.6. Bu Müqavilənin 5.7-ci bəndinə uyğun olaraq, 5.5.2-ci yarımbəndi ilə müəyyən olunmuş qərar qəbul edildikdə;

8.2.7. Bu Müqavilənin 4.9.4-cü yarımbəndi ilə müəyyən olunmuş qərar qəbul edildikdə;

8.2.8. mehmanxananın (hotelin) sahibkarı dəyişdikdə;

8.2.9. mehmanxanının (hotelin) adı (brendi) dəyişildikdə və bu barədə Uyğunluğu qiymətləndirən quruma müvafiq məlumatlar dəyişikliklərin baş verdiyi tarixdən etibarən 10 (on) iş günü ərzində təqdim edilmədikdə;

8.2.10. Bu Müqavilədə nəzərdə tutulmuş fors-major hallar, habelə digər üzrlü səbəblərdən mehmanxanın (hotelin) fəaliyyəti 15 (on beş) gündən artıq müddətə dayandırıldıqda və bu barədə Uyğunluğu qiymətləndirən quruma yazılı məlumat verilmədikdə;

8.2.11. Bu Müqavilə üzrə müəyyən olunmuş digər öhdəliklər pozulduqda bu barədə pretenziya təqdim edildikdən sonra 1 (bir) ay ərzində pozuntular aradan qaldırılmadıqda.

8.2.12. bu Müqavilənin 4.4.2-ci yarımbəndi ilə müəyyən olunmuş, mehmanxananın (hotelin) heç bir ulduz kateqoriyasına uyğun olmaması barədə qərar qəbul edildikdə.

8.3. Mehmanxananın (hotelin) qiymətləndirilməsi həyata keçirilənədək Tərəflər bir-birilərini 15 (on beş) iş günü əvvəlcədən xəbərdar etməklə bu Müqaviləyə xitam verə bilərlər.

8.4. Uyğunluğu qiymətləndirən qurum Müqaviləni Sifarişçinin öz öhdəliklərini üzrsüz səbəbdən natamam yerinə yetirməsi ilə bağlı ləğv etdikdə müəyyən olunmuş ödəniş məbləğinin yerdə qalan hissəsi Sifarişçi tərəfindən ödənilməlidir. Sifarişçi tərəfindən öhdəlik tamamilə yerinə yetirilmədikdə Uyğunluğu qiymətləndirən qurum Müqavilə üzrə öhdəliklərinin icrasından imtina edərək Müqaviləni ləğv etməklə dəymiş zərərin ödənilməsini Sifarişçidən tələb edə bilər.

8.5. Bu Müqaviləyə xitam verilməsi (bu Müqavilənin 9-cu hissəsi istisna olmaqla) mehmanxanaya (hotelə) təqdim olunmuş sertifikatın qüvvədən düşməsinə səbəb olur.

## 9. Mehmanxananın (hotelin) sahibkarının dəyişməsi

9.1. Mehmanxananın (hotelin) sahibkarı dəyişdikdə Sifarişçi 10 (on) iş günü ərzində bu barədə Uyğunluğu qiymətləndirən quruma yazılı məlumat verməlidir. Qeyd olunan məlumatın verilməməsi bu Müqavilə üzrə Sifərişçinin öhdəliklərinin davam etməsi deməkdir.

9.2. Bu Müqavilənin 9.1-ci bəndində göstərilən məlumatın Uyğunluğu qiymətləndirən quruma daxil olması Müqavilənin xitamına səbəb olur.

9.3. Müqavilənin yeni sahibkarı mehmanxananı (hoteli) idarə etməyə başladıqdan 1 (bir) ay ərzində yeni müqavilənin bağlanması üçün müraciət etdikdə təkrar qiymətləndirmə aparılmadan mehmanxananın (hotelin) mövcud ulduz kateqoriyası (sertifikat və nişan) qüvvədə saxlanılır. Bu halda yeni sahibkarın ödəniş öhdəliyi Müqavilənin 7.5.2-ci yarımbəndində nəzərdə tutulmuş qaydada əvvəlki müqavilədən qalan və ödənilməmiş məbləğlə məhdudlaşır və yeni bağlanmış müqavilənin qüvvədəolma müddəti sahibkarın dəyişdiyi tarixdən asılı olmayaraq bu Müqavilə üzrə mövcud sertifikatın qüvvədəolma müddətindən artıq ola bilməz.

9.4. Yeni sahibkar daha yüksək ulduz kateqoriyasına iddialı olduqda təkrar qiymətləndirmə aparılmasını tələb edə bilər. Belə olan halda onun tərəfindən ödəniş bu Müqavilənin 4.9-cu bənddə və 7.5.2-ci yarımbənddə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

9.5. Yeni sahibkarın bu Müqavilənin 9.3-cü bəndi ilə müəyyən olunmuş müddəti ötürməsi halında tərəflər arasında bağlanılacaq yeni müqavilədə ödəniş bu Müqavilənin 7.5-ci bəndində nəzərdə tutulmuş qaydada həyata keçiriləcək.

9.6. Bu Müqavilənin 9.3–9.5-ci bəndlərində nəzərdə tutulmuş müddəalar yeni sahibkarın mehmanxananın (hotelin) idarə edilməsini qəbul etməsi halında tətbiq edilə biləcək prosedur qaydalar barədə məlumat xarakteri daşıyır və yeni sahibkar üçün birbaşa hüquq və ya öhdəlik yaratmır və yeni sahibkar ilə Uyğunluğu qiymətləndirən qurum arasında ayrıca müqavilə bağlanmadıqca heç bir hüquqi qüvvəyə malik hesab edilmir.

9.7. Yeni sahibkar ilə bağlanacaq müqavilə bu Müqavilənin 9.3–9.5-ci bəndlərində nəzərdə tutulmuş prinsip və prosedur əsaslar nəzərə alınmaqla tərtib edilir və həmin müqavilə imzalandığı andan etibarən yeni sahibkar üçün hüquqi qüvvəyə minir.

## 10. Submüqavilələr

10.1. Uyğunluğu qiymətləndirən qurum bu Müqavilə ilə müəyyən olunmuş öhdəliklərinin icrası ilə bağlı submüqavilələr bağlaya bilər. Uyğunluğu qiymətləndirən qurum submüqavilələrin icrasına görə Sifarişçi qarşısında məsuliyyət daşıyır.

## 11. Məxfilik

11.1. Tərəflər bu Müqavilənin icrası çərçivəsində əldə edilmiş kommersiya və xidmət sirrini yaymamaq, bu məlumatlardan yalnız bu Müqavilənin icrası ilə bağlı istifadə etmək və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallar istisna olmaqla, belə məlumatları müvafiq yazılı icazə olmadan açıqlamamaq barədə öhdəlik götürürlər.

11.2. Uyğunluğu qiymətləndirən qurum sertifikat təqdim edilmiş mehmanxanaların (hotellərin) siyahısını (ulduz kateqoriyasını göstərməklə) rəsmi veb-saytında və digər onlayn platformalarda dərc etmək hüququna malikdir.

11.3. Bu Müqavilənin qüvvədə olma müddətinin bitməsi və ya Müqavilənin ləğvi Tərəfləri bu Müqavilənin icrası ilə əlaqədar əldə olunmuş konfidensial məlumatların qorunması üzrə öhdəlikdən azad etmir.

## 12. Tərəflərin məsuliyyəti

Bu Müqavilə üzrə öhdəliklərini icra etməyən və ya lazımınca icra etməyən Tərəf digər Tərəfə vurduğu zərərə görə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə müəyyən olunmuş qaydada məsuliyyət daşıyır.

## 13. Mübahisələrin həlli

13.1. Tərəflər müqavilə üzrə öz aralarında yaranmış mübahisəli məsələləri və ya qeyri-müəyyənlikləri danışıqlar və qarşılıqlı razılaşmalar yolu ilə həll etməlidirlər.

13.2. Mübahisəli məsələlərin və qeyri-müəyyənliklərin həlli danışıqlar yolu ilə 30 (otuz) gün müddətində mümkün olmadıqda bu məsələlər Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən Azərbaycan Respublikasının məhkəmələrində həll edilməlidir.

## 14. Fors-major

14.1. Fors-major hallar nəticəsində Müqavilə üzrə öhdəlikləri yerinə yetirmək mümkün olmadıqda Tərəflər onların yerinə yetirilməməsi üçün məsuliyyət daşımırlar o şərtlə ki, həmin hallar Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsinə bilavasitə təsir etmiş olsun.

14.2. Fors-major hallara Tərəflərin nəzarətində olmayan, onların səhvi və ya laqeydliyi nəticəsində baş verməyən, qabaqcadan nəzərdə tutulması mümkün olmayan hadisələr aid edilir. Bunlara müharibələr və ya inqilablar, daşqınlar, epidemiyalar, epizootiyalar, karantinlər, embarqolar, dövlət və hökumət qərarları və bu kimi digər hallar aid edilir.

14.3. Fors-major halların təsiri müddəti ərzində Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi təxirə salınır.

14.4. Müqavilə üzrə öz öhdəliklərini yerinə yetirə bilməyən Tərəf bu öhdəliklərin yerinə yetirilməsinə mane olan halların başlanması və bitməsi haqqında digər Tərəfi yazılı surətdə dərhal xəbərdar etməlidir.

## 15. Yekun müddəalar

15.1. Bu Müqaviləyə edilən hər hansı əlavə və ya dəyişikliklər bu Müqavilənin ayrılmaz tərkib hissəsi olmaqla yalnız yazılı şəkildə olduqda və Tərəflərin (və ya onların səlahiyyətli nümayəndələrinin) imza və möhürləri (əgər mövcuddursa) ilə təsdiq edildikdə etibarlı sayılır.

15.2. Bu Müqavilə Tərəflər arasında Müqavilənin predmetinə dair bütöv razılaşmanı əks etdirir və bu predmetə aid olan hər hansı və ya bütün digər yazılı və ya şifahi razılaşmalardan, kommunikasiyalardan üstün hüquqi qüvvəyə malikdir.

15.3. Tərəflər özlərinin hüquqi ünvanlarının, telefon və faks nömrələrinin dəyişilməsi barəsində 10 (on) iş günü ərzində bir-birini xəbərdar etməlidirlər.

15.4. Bu Müqavilə Azərbaycan dilində eyni hüquqi qüvvəyə malik 2 nüsxədə tərtib edilmişdir və hər bir tərəfdə bir nüsxə saxlanılır.

## 16. Tərəflərin rekvizitləri

| **Sertifikatlaşdırma orqanı** | **Sifarişçi** |
|---|---|
| Azərbaycan Turizm Bürosu | ________________ |
| VÖEN: 1702095831 | VÖEN: |
| Bank: "Paşa Bank" ASC | Bank: |
| Bankın VÖEN-i: 1700767721 | Bankın VÖEN-i: |
| Kod: 505141 | Kod: |
| H/h:AZ10PAHA38060AZNHC0100004916 | H/h: |
| M/h: AZ82NABZ01350100000000071944 | M/h: |
| SWIFT: PAHAAZ22 | SWIFT: |
| İdarə Heyətinin sədri, | ______________, |
| Florian Zenqstşmid | ____________________________ |
| ____________________________ | ____________________________ |
| *(imza)* | *(imza)* |
| M.Y. | M.Y. |

"Azərbaycan Turizm Bürosu" publik hüquqi şəxs və ________________ arasında imzalanmış Ulduz kateqoriyaları üzrə sertifikatlaşdırmanın aparılmasına dair__________tarixli______________nömrəli Müqaviləyə

**Əlavə № 1**

Bakı şəhəri "___"____________2026 il

1. Hazırkı 1 nömrəli Əlavə ilə tərəflər xidmətlərin dəyərinin "Azərbaycan Turizm Bürosu" publik hüquqi şəxsin 04 fevral 2026-cı il tarixli 3-46-1/3-1-71/2026 nömrəli əmr ilə təsdiq edilmiş Mehmanxanaların ulduz kateqoriyaları üzrə sertifikatlaşdırma orqanı tərəfindən göstərilən sertifikatlaşdırma xidmətlərinin tarif cədvəli üzrə hesablanması barədə razılığa gəlirlər:

<table>
<tr><th rowspan="3">Kateqoriya/ dərəcə</th><th colspan="2" rowspan="2">İlkin ödəniş tarifi</th><th colspan="4">Sertifikatın tarifi</th><th colspan="2" rowspan="2">Təkrar qiymətləndirmə tarifi</th></tr>
<tr><th colspan="2">Sabit tarif</th><th colspan="2">Bir nömrə üçün tarif</th></tr>
<tr><th>Bakı şəhəri / Rezort mehman-xanalar</th><th>Digər region-lar</th><th>Bakı şəhəri/ Rezort mehman-xanalar</th><th>Digər region-lar</th><th>Bakı şəhəri/ Rezort mehman-xanalar</th><th>Digər region-lar</th><th>Bakı şəhəri/ Rezort mehman-xanalar</th><th>Digər region-lar</th></tr>
<tr><td colspan="9">5 ulduz</td></tr>
<tr><td>Standart</td><td colspan="2" rowspan="2">600</td><td>5175</td><td>3623</td><td>41</td><td>31</td><td colspan="2" rowspan="2">700</td></tr>
<tr><td>Superior</td><td>6210</td><td>4347</td><td>45</td><td>38</td></tr>
<tr><td colspan="9">4 ulduz</td></tr>
<tr><td>Standart</td><td colspan="2" rowspan="2">600</td><td>4140</td><td>2898</td><td>35</td><td>24</td><td colspan="2" rowspan="2">700</td></tr>
<tr><td>Superior</td><td>4968</td><td>3478</td><td>38</td><td>28</td></tr>
<tr><td colspan="9">3 ulduz</td></tr>
<tr><td>Standart</td><td colspan="2" rowspan="2">600</td><td>3450</td><td>2415</td><td>28</td><td>21</td><td colspan="2" rowspan="2">700</td></tr>
<tr><td>Superior</td><td>3968</td><td>2777</td><td>31</td><td>23</td></tr>
<tr><td colspan="9">2 ulduz</td></tr>
</table>

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Standart | 600 | 2760 | 1932 | 21 | 14 | 700 |
| Superior | | 3312 | 2318 | 24 | 17 | |
| **1 ulduz** | | | | | | |
| Standart | 600 | 2760 | 1932 | 21 | 14 | 700 |
| Superior | | 3312 | 2318 | 24 | 17 | |

Qeydlər:

* Qiymətlərin valyutası manatdır;

* Qiymətlərə ƏDV daxil deyil;

* "Bakı şəhəri/Rezort mehmanxanalar" dedikdə Bakı şəhəri üzrə mehmanxanalar və respublika ərazisi üzrə bütün rezort mehmanxanalar nəzərdə tutulur;

* "Digər regionlar" dedikdə Bakı şəhəri xaric digər regionlardakı mehmanxanalar nəzərdə tutulur;

* Apellyasiya zamanı təkrar qiymətləndirmənin aparılması zərurəti yarandığı halda tarif cədvəlinə uyğun olaraq ödəniş həyata keçirilir.

* Sertifikatlaşdırma orqanının ulduz dərəcəsinin təyin edilməsinə dair müvafiq qərarı qəbul edildikdən sonra sertifikatın tarifi aşağıdakı qaydada hesablanır: ST = S + N×NS

Burada,

ST - Sertifikatın tarifi

S - Sabit tarif

N - Nömrə tarifi

NS - Mehmanxanada təqdim edilən nömrələrin sayı

*Sertifikatın tarifinə uyğun olaraq hesablanmış illik ödəniş birinci il və növbəti illərdən asılı olaraq, aşağıdakı qaydada hesablanır:

Birinci il: İST=ST/3-İÖ

Növbəti illər: İST= ST/3

Burada,

İST - İllik sertifikat tarifi

ST - Sertifikatın tarifi

QT – Qiymətləndirmə tarifi

* Təqdim edilən nömrə sayı 250-dən çox olan mehmanxanalara münasibətdə sertifikat tarifi aşağıdakı qaydada hesablanır:

ST= S+Nx250

* Sifarişçinin istəyinə uyğun olaraq sertifikatın tarifinin birdəfəlik ödənilməsi mümkündür.

* Qiymətlərə auditorların mehmanxanada gecələməsi xərcləri daxil deyildir.

2. Hazırkı Əlavə eyni hüquqi qüvvəyə malik 2 (iki) nüsxədə tərtib olunmuşdur.

**Tərəflərin rekvizitləri**

| **Sertifikatlaşdırma orqanı** | **Sifarişçi** |
|---|---|
| Azərbaycan Turizm Bürosu | ________________ |
| VÖEN: 1702095831 | VÖEN: |
| Bank: "Paşa Bank" ASC | Bank: |
| Bankın VÖEN-i: 1700767721 | Bankın VÖEN-i: |
| Kod: 505141 | Kod: |
| H/h:AZ10PAHA38060AZNHC0100004916 | H/h: |
| M/h: AZ82NABZ01350100000000071944 | M/h: |
| SWIFT: PAHAAZ22 | SWIFT: |
| İdarə Heyətinin sədri, | _____________, |
| Florian Zenqstşmid | ____________________________ |
| ____________________________ | ____________________________ |
| *(imza)* | *(imza)* |
| M.Y. | M.Y. |